# Əmək və əhalinin sosial müdafiəsi naziri Qəbələdə sakinlərlə görüşüb





Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Qəbələ, Şəki və Oğuz rayonlarının sakinlərini qəbul edib.

Qəbuldan əvvəl Sahil Babayev və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev ümummilli lider Heydər Əliyevin Qəbələ şəhərindəki abidəsi önünə gül dəstələri düzüb, xatirəsini dərin ehtiramla yad ediblər.

Qəbələ Mədəniyyət Mərkəzində keçirilən qəbulda vətəndaşların sosial təminat, əlilliyin qiymətləndirilməsi, məşğulluğun təminatı, özünüməşğulluq proqramına və peşə hazırlığına cəlb olunma, əmək hüquqlarının müdafiəsi, bərpa müalicəsi xidmətləri və reabilitasiya vasitələri ilə təmin edilmə və s. kimi məsələlərlə bağlı müraciətləri dinlənilib.

Müraciətlərdə ifadə olunan məsələlərin hər biri nazirliyin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə araşdırılıb, qaldırılan məsələlərin həlli üçün qanunvericilik çərçivəsində müvafiq tədbirlərin görülməsi nəzərdə tutulub.

Sorğu xarakterli müraciətlərlə bağlı izahatlar, bir sıra şəxslərin müraciətləri əsasında onlara ərazidəki vakant iş yerlərinə göndərişlər verilib. Ayrı-ayrı şəxslərin mövcud potensialları müqabilində özünüməşğulluq proqramına, əlilliyi olan şəxslərin bərpa müalicəsi xidmətlərinə cəlb edilməsi üçün onların qeydiyyata alınması tapşırılıb.



Sahil Babayev 2019-cu il ərzində nazirliyin bir sıra regional reabilitasiya müəssisələrinin, o cümlədən Şəki şəhərindəki əlilliyi olan şəxslər üçün Regional Bərpa Mərkəzinin əsaslı təmir və yenidənqurmadan sonra açılışının, eyni zamanda, bu il Qəbələ rayonunda reabilitasiya müəssisəsinin tikintisinə başlanmasının nəzərdə tutulduğunu deyib. Nazir bu üç rayon üzrə 2018-ci ildə 300-ə yaxın şəxsin özünüməşğulluq proqramına cəlb edildiyini, cari ildə də bölgədə proqram çərçivəsində aztəminatlı ailələr üçün yeni təsərrüfatların yaradılacağını bildirib.

Qəbuldan sonra əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevlə birgə rayonun özünüməşğulluq proqramı iştirakçıları ilə görüşüblər.

Proqram iştirakçıları ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən icra olunan özünüməşğulluq proqramının 2018-ci ildə əvvəlki illə müqayisədə 6,5 dəfə çox insanı əhatə etdiyini, biznes-planlarını uğurla müdafiə edən 7267 nəfərin keçən il proqramın iştirakçısı olduğu və gələcəkdə də proqramın genişləndiriləcəyi bildirilib.

Qeyd olunub ki, vətəndaşların proqrama cəlb edilməsi işlərində daha həssas əhali qruplarına - əlilliyi olan şəxslərə, məcburi köçkünlərə, şəhid ailələrinə üstünlük verilir.

Özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə biznesini qurmuş insanlar aztəminatlı ailələrin sahibkarlığa çıxışına şərait yaradıldığına görə Prezidenti İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Sakinlər onlara göstərilən qayğıdan məmnundurlar

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı verdiyi tapşırıq və tövsiyyələri rəhbər tutaraq yerlərdə səyyar qəbulların keçirilməsi, vətəndaşların qaldırdıqları məsələlərin operativ həlli, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlərin görülməsi daim Qəbələ Rayon İcra Hakimiyyətinin nəzarətində saxlanılır.***

***Səyyar qəbullar həm də vətəndaşların arzu, istək və təkliflərinin öyrənilməsi, qaldırılan məsələlərin ümumiləşdirilməsi istiqamətində səmərəli nəticələr verir.***

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin növbəti səyyar görüş-qəbulu aprelin 15-də Zalam kənd sakinləri ilə keçirilib. Yığıncaqda rayonun hüquq mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə, təşkilatlarının rəhbərləri, kənd ictimaiyyətinin nümayəndələri və ağsaqqallar iştirak ediblər.



Görüşdə RİH-nin başçısı tədbir iştirakçılarına respublikamızın sosial-iqtisadi inkişafından, ölkə başçısı tərəfindən aparılan sosial islahatlardan danışıb. O, qeyd edib ki, həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, bu gün respublikanın hər bir bölgəsində, o cümlədən rayonumuzda geniş quruculuq işləri aparılır - yeni yollar çəkilir, təhsil, səhiyyə müəssisələri inşa olunur, uşaq bağçaları tikilir, sosial layihələr həyata keçirilir.

Natiq bildirib ki, dövlət başçısı tərəfindən aparılan islahatlar nəticəsində, ölkədə müasir istehsal və emal müəssisələri açılır, yeni iş yerləri yaradılır. Görülən bütün bu işlərin, həyata keçirilən tədbirlərin yalnız bir amala - əhalimizin yaxşı yaşamasına, onların sosial rifahının və həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına xidmət etdiyi diqqətə çatdırılıb.



Son illər Zalam kəndində də bir çox quruculuq işlərinin aparıldığını qeyd edən RİH-nin başçısı digər kəndlərimiz kimi bu yaşayış məntəqəsinə də qaz xəttinin çəkildiyini, elektrik və su təsərrüfatında yenidənqurma işlərinin aparıldığını, hazırda kəndin mərkəzindən keçən və 10 kəndi birləşdirən asfalt yolun və həmin yolda Qaraçay üzərində yeni körpünün inşa edildiyini, suvarma kollektorunun qaydaya salındığını bildirib. Rayon rəhbəri Zalam Bələdiyyəsi tərəfindən də kəndarası yolların qum-çınqılla hamarlanması istiqamətində tədbirlər müəyyənləşdirildiyini vurğulayıb.

Sonra görüş-qəbulda kənd sakinləri dinlənilib. Onlar rayonumuza göstərilən diqqət və qayğıya, Böyük Əmili- Kiçik Əmili-Zalam-Yenikənd-Bılıx-Əmirvan yolunun tikintisinə və ərazidə aparılan abadlıq və quruculuq işlərinə görə bütün sakinlər adından Prezident İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildiriblər.

Çıxış edənlərdən Azad Əbdürrəhimov, Ülkər Hacıyeva, Ruhəngiz Qəribova və digərləri kənddə yeni uşaq bağçasının tikilməsini, tam orta məktəb binasının əsaslı təmir olunmasını, ərazidə bir artezian quyusunun qazılmasını və əlavə transformatorun quraşdırılmasını xahiş ediblər.

Görüş zamanı kənd sakinlərinin qaldırdıqları problemlərin və məsələlərin həlli ilə bağlı RİH-nin başçısı tərəfindən aidiyyəti təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verilib.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto).**
**«Qəbələ»**